## *FİZİKİ TƏRBİYƏNİN TƏDRİSİ METODİKASI, İDMAN VƏ SAĞLAM HƏYAT TƏRZİ*

UOT 37.01

**_Dilqəm Qasım oğlu Quliyev_**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası rektorunun idman işləri üzrə müşaviri, pedaqogika üzrə elmlər doktoru*

**_Etibar Dilqəm oğlu Quliyev_**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**_Ayaz Azad oğlu Cəfərov_**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının baş müəllimi*

# HƏRBİ-FİZİKİ TƏRBİYƏNİN MÜHÜM VASİTƏLƏRİ OLAN FİZİKİ HƏRƏKƏTLƏR, OYUNLARIN TƏŞKİLİ YOLLARI

**_Дильгам Гасым оглы Гулиев_**
*советник ректора по спорту Азербайджанской Государственной Академии Физического Воспитания и Спорта, доктор наук по педагогике*

**_Этибар Дильгам оглы Гулиев_**
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*

**_Аяз Азад оглы Джафаров_**
*старший преподаватель Азербайджанской Государственной Академии Физического Воспитания и Спорта*

# ПУТИ ОРГАНИЗАЦИИ ФИЗИЧЕСКИХ УПРАЖНЕНИЙ И ИГР КАК ВАЖНОЕ СРЕДСТВО ВОЕННО-ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ

**_Dilgam Gasim Gouliyev_**
*advisor to the rector on sports of the Azerbaijan State Academy of Physical Education and Sport*

**_Etibar Dilgam Gouliyev_**
*Azerbaijan State Academy of Physical Education and Sport*

**_Ayaz Azad Jafarov_**
*senior teacher of the Azerbaijan State Academy of Physical Education and Sport*

# WAYS OF ORGANİZİNG PHYSİCAL EXERCİSES AND GAMES AS AN İMPORTANT MEANS OF MİLİTARY-PHYSİCAL EDUCATİON

**Xülasə:** Məqalədə, hərbi-fiziki tərbiyənin mühüm vasitələrindən olan hərbi-fiziki hərəkətlər və oyunların təşəkkülü, elmi əsası, Azərbaycan xalqının görkəmli mütəfəkkirlərinin, tarixi etnoqrafiq tədqiqatları, habelə dünyanın müxtəlif xalqları, habelə Azərbaycan xalqı haqqında, onun folkloru, arxeoloji qazıntı materialları işıqlandırılmışdır.

***Açar sözlər:*** *ordu, hərbi-fiziki hərəkətlər, qılınc, balta, nizəyə oxşar silahlarla döyüşlər,dəyənəklərlə döyüşlər, kəməndlə döyüşlər, xəncərlə döyüşlər, güc, çəldlik, quraqlıq, simmetriyasız, simmetriyalı, ox ucluqlar*

**Резюме:** Формирование военно-физических упражнений и игр, как один из важных средств военно-физического воспитания, их научная основа, исторические этнографические исследования великих мыслителей азербайджанского народа, а также материалы о разных народах мира, а также азербайджанского народа, их фольклор, археологические находки освещены в этой статье.
***Ключевые слова:*** *войска, военно-физические упражнения, меч, топор, бои с оружиями подобно копью, бои с дубинками, бои с арканом, бои с кинжалом, сила, быстрота, засуха, несимметричный, симметричный, острие стрелки*

**Summary:** Formation of military-physical exercises and games, as one of the important means of military-physical education, their scientific basis, historical ethnographic studies of the great thinkers of the Azerbaijani people, as well as materials about different nations of the world, as well as the Azerbaijani people, their folklore, archaeological finds covered in this article.
***Keywords:*** *troops, military exercises, sword, ax, fighting with weapons like a spear, fighting with batons, fighting with a lasso, fighting with a dagger, strength, speed, drought, asymmetrical, symmetrical, pointed arrow*

**Hərbi-fiziki (təkbətək mübarizəlik) hərəkət və oyunların ayrı-ayrı növləri**. Azərbaycanda ilk icma dövrü dağıldıqdan sonra ayrı-ayrı birliklər yaranmağa başladı. Onlar xarici düşmənlərə qarşı mübarizədə birləşməyə başladılar. Bu birliklər arasında tez-tez baş verən çəkişmələr, təbiidir ki, hərbi-fiziki tərbiyənin yeni forma və vasitələrinin yaranmasına, köhnəlmiş hərbi-fiziki hərəkət və oyunların isə təkmilləşməsinə gətirib çıxartdı.

Azərbaycanda hərbi-fiziki hərəkət və oyunların inkişafına mane olan səbəblər də olmuşdur. Azərbaycanda hərbi-fiziki hərəkət və oyunların inkişafına xarici qəsbkarlar da hər cür maneçilik törədirdilər. Onlar xalqın mübarizəsindən qorxaraq Azərbaycan xalqının mübarizə ruhunu və hərbi-fiziki hazırlığını hər cəhdlə qırmağa çalışırdılar.

Tədqiqat işində təkbətək silahlı mübarizədə işlədilən 12 müxtəlif növün (onlardan 16 variantı vardır) təhlili verilir. Bunlara qılıncla, balta ilə döyüşlər, nizəyə oxşar silahlarla döyüşlər, dəyənəklərlə döyüşlər, kəməndlə döyüşlər, xəncərlə döyüşlər və s. daxildir [9].

Alim və tədqiqatçılardan bir çoxunun Azərbaycan ərazilərindən aşkar olunmuş tunc təbərzin baltalar, onların tapılma şəraiti, hazırlanma üsulu, daşıdıqları vəzifə və digər səciyyəvi xüsusiyyətləri barədə müəyyən fikir və mülahizələri vardır. Bu fikir və mülahizələrdən belə məlum olur ki, mütəxəssislər Azərbaycanın tunc təbərzin baltalarını vəzifələrinə uyğun həm döyüş silahı, həm də təsərrüfatın müxtəlif sahələrində işlədilən əmək aləti kimi səciyyələndirmişlər. Tədqiqatlarda təbərzin formalı xüsusi biçimli bəzək əşyalarına da geniş yer verilmiş və bunlara aid də maraqlı mülahizələr irəli sürülmüşdür [4]. Baltalar öz quruluşuna görə iki tipə – simmetriyasız və simmetriyalı baltalara bölünür.

Q. Aslanov Azərbaycanda aşkar olunmuş simmetriyalı tunc təbərzin baltaları quruluşlarına görə dörd əsas tipə bölmüşdür. Birinci tip küp hissəsində bir neçə ədəd iti və özünə müvafiq uclu çıxıntıları olan baltalar, ikinci tip iki ağızlı olub, hər iki ağzı qövs şəklində hazırlanmış və ağız hissəsinin uc tərəfləri sap keçən dəstəyə doğru əyilmiş baltalar**,** üçüncü tip küp hissəsinin üzəri saya və müxtəlif şəkildə qabarıq xətlər naxışlanmış baltalar, dördüncü tip isə simmetriyalı, uzun tiyələri olan təbərzin baltalardır. Azərbaycan ərazisindən birinci və ikinci tipə aid edilmiş təbərzin baltalar üçün hazırlanmış qəliblər hələlik tapılmamışdır. Üçüncü tipə aid baltalar üçün qəliblər Şəmkir və Gədəbəy rayonları ərazisindən aşkar edilmişdir. Qəliblər daşdan hazırlanmışdır. Onlardan biri hal-hazırda Azərbaycan tarixi muzeyinin arxeologiya fondunda mühafizə edilir [2].

Qədim alban ox ucluqlarının əksəriyyəti, əsasən, uzaqvuran silah tiplərindən biri olub, forma və hazırlanma texnikasına görə bir-birindən çox fərqlənmirlər. Onlar, əsasən, Mingəçevirdən 14 ədəd, Şəmkirdən 20 ədəd, Albaniyanın paytaxt şəhəri Qəbələdən 32 ədəd, Türkiyə-

dən 21 ədəd, Qarabudarkənddən 28 ədəd və Torpaqqaladan (xeyli miqdar) torpaq, küp, daş qutu, taxta qutu, quyu və katakomba qəbirlərindən aşkar edilmişdir [13]. Alim və tədqiqatçı Əsgər Əliyev tuncdan, dəmirdən və sümükdən ibarət olan bu ox ucluqlarını, əsasən, dörd qrupa – metal ox ucluqlarını formalarına görə üç əsas qrupa – ikiqanadlı, üçqanadlı, gözvarı, sümük ox ucluqlarını isə dördüncü qrupa aid etmişdir. Daha sonra o, bu ox ucluqlarını ətraflı şəkildə təsvir edərək analoji müqayisələrini verməklə funksional vəzifələrini də müəyyənləşdirmişdir. Tədqiqatçı yazır ki, birinci tipi təşkil edən enli qanadlı kəsiyi olan rombvari ox ucluqları mənşə etibarilə daha qədimdir və belə ox ucluqlarından təxminən e.ə. III əsrə qədər istifadə olunmuşdur [7].

Belə ox ucluqları Mingəçevirin qədim yaşayış yerindən kənarda hələlik məlum deyildir. İkinci qrupa daxil olan üçqanadlı ox ucluqları isə e.ə. IV əsrin II yarısından şimaldan – sarmat tayfalarından yayılmağa başlamış və e.ə. II minilliyin II əsrində Alban ərazisində çox geniş yayılmışdır.

İkinci qrup ox ucluqları Albaniyada e.ə. III əsrdən başlayaraq, eramızın II əsrindəki dövrü əhatə edir.

Mingəçevirin küp qəbirlərindən əldə edilmiş və ikinci qrupa daxil olan ox ucluqlarını Q.İ. İone e.ə. II və eramızın II əsrlərinə aid edir. İkinci qrupun ikinci tipinə daxil olan ox ucluqları içərisində nisbətən iriləri də vardır. Bu tip iri ox ucluqları Mingəçevir, Xınıslı və Tərkidən digər ox ucluqları ilə birlikdə tapılmışdır. Tapılmış iri ox ucluqları göstərir ki, bu dövrdə yaylar iri, kirişi möhkəm olmuşdur. Ox ucluqları uzaq məsafəyə atılmasına, hədəfə düzgün dəyməsinə və təsir gücünə görə də müxtəlif formalarda düzəldilirdi**.**

Dördüncü qrupa daxil olan sümük ox ucluqları (dörd və üç üzlü olan) əsası oymalı, uç hissəsi şiş, yan üzvləri isə hamardır.

Ox ucluqlarının mənşəyinə gəlincə, alim I-IV qrupa daxil olan nümunələri yerli ənənələrin davamı kimi, II və III qrup silahların isə qonşuluqda geniş yayılmış və təkmilləşmiş ox ucluqları əsasında hazırlandığını qeyd edir. Çox maraqlıdır ki, I qrup ox ucluqları əgər Albaniyada e.ə. III-I əsrlərdə istifadə edilibsə, bir sıra tədqiqatlardan məlum olur ki, bu ox ucluqları eramızın əvvəllərində Orta Asiyada daha təkmil uzaqvuran silah növünə çevrilmişdi. [8].

1963-cü ildə Qazax ekoloji ekspedisiyasının apardığı kəşfiyyat zamanı Ağstafa dəmiryolu yaxınlığında aşkar edilmiş, döyüşçüyə məxsus torpaq qəbirdən bir ədəd dəmir xəncər və tunc dəstəkli, dəmir tiyəli qılıncla bir yerdə kəmər də əldə edilmişdir. Abidəni tədqiq etmiş arxeoloq alimlər C.N. Rüstəmov və İ.H. Nərimanov xəncər və qılıncla birlikdə həmin kəmərin də təsvirinə və analoji müqayisələrinə geniş yer verərək nəşr etdirdikləri məqalələrində kəmərin bilavasitə döyüşçüyə məxsus hərbi ləvazimat olma xarakterini elmi surətdə müəyyənləşdirmişlər. Bu kəmər uzunluğu 86 sm, eni 16 sm olan tunc lövhədən ibarətdir. Onun ucları yarımdairəvidir və hər ucunda kəməri beldə iplə bağlamaq üçün deşik açılmışdır. Kəmərin üzəri bir-birinə hücum edən canavar fiqurları, balıq rəsmləri və şam ağacı yarpaqlarına bənzər zolaqlardan ibarət həndəsi naxışlarla bəzədilmişdir [11].

Azərbaycan ərazisində bu tip kəmərlərə, ümumiyyətlə, son tunc və ilk dəmir dövrü abidələrindən çox təsadüf olunmuşdur. Onlara Gədəbəy rayonunda, Xocalıda, Mingəçevirdə, Qazaxda, Oğuzda, Abşeronda və başqa yerlərdə rast gəlinmişdir və mütəxəssislərin hər biri ayrı-ayrılıqda onları müxtəlif cür izah edirlər. Məsələn, professor B.B. Piotrovski Zaqafqaziyadan toplanmış bu tip tunc kəmərlərin üzərindəki təsvirləri təhlil edərkən onların yalnız geyim deyil, eyni zamanda, dini əşya kimi işləndiyi fikrini söyləyir. Tədqiqatçı S.M. Qaziyev bu cür enli tunc kəmərlərin hərbçilərə aid olduğunu ehtimal edir [10]. C.N. Rüstəmov və İ.H. Nərimanov yazırlar ki, yuxarıda təsvir edilən kəmərin adamın qarın boşluğunu mühafizə etmək üçün kifayət qədər enli olması və üzərindəki güclü zərbə ilə deşilmiş nizə və ya xəncər yeri, onun vaxtilə zireh kimi istifadə olunduğunu göstərir. Daha sonra alimlər yazırlar ki, adətən bu tip tunc kəmərlərin ən qədim nümunələrinə e.ə. I minilliyin ilk əsrlərinə aid abidələrdə rast gəlmək olar. Belə ki, tunc kəmərlər aşkar edilmiş abidələrin əksəriyyətində dəmir əşyalar da tapılmışdır. Məsələn, Gədəbəy rayonunda B. Belk tərəfindən qazılmış qəbirlərdən də eyni tipli kəmərlər, dəmir əşyalar, nizə ucları və qılınc tapılmışdır. Qazax rayonunun Qazaxbəyli kəndi yaxınlığındakı qəbirdən tapılmış tunc kəmər və tunc dəstəkli, də-

mir tiyəli qılıncla birlikdə, cida ucu və başqa bir dəmir qılıncda aşkar edilmişdir. Eyni vəziyyət qeyd olunan qəbirdə də təkrar olunmuşdur [12].

Azərbaycanın müxtəlif abidələrdən aşkar olunmuş təbərzin baltaları hərbi iş, təsərrüfat və məişətin ayrı-ayrı sahələrində istifadə edilməklə yanaşı, həm də dini mahiyyət daşımışdır.

Baltanın öz formasını metal balta istehsalında son vaxtlara kimi saxlaması, məişət və mərasimlərdə istifadə edilməsi çox güman ki, dünya xalqlarının dininə də ibtidai dini görüşlərdən süzülüb gələn əlamətdir.

E.ə. tunc və ilk dəmir dövründə Azərbaycanda əkinçiliyin və maldarlığın inkişafında müəyyən rol oynayan təbərzin baltalar iki mühüm vəzifə daşımışdır. Çox güman ki, həcmcə iri, ağır, üzəri saya, küpələrinin arxası olan baltalar qəbilə üzvlərinin maddi tələbatlarını ödəmək üçün təsərrüfatın və sənətkarlığın müxtəlif sahələrində, həcmcə bu baltalardan bir qədər kiçik, üzəri müxtəlif naxışlarla bəzədilmiş, küplərində tikan şəkilli çıxıntıları olan baltalar isə hərbi hücum silahı döyüş baltası kimi istifadə edilmişdir.

XVI-XVII əsrlərdə metaldan ev avadanlığı, silah və bəzək nümunələri düzəltmək Təbriz, Ərdəbil, Marağa, Xoy, Naxçıvan, Gəncə, Şamaxı və Bakı şəhərlərində xüsusilə geniş inkişaf etmişdir **[5].** XVI əsrdə Təbrizdə toxunmuş dairə şəklində olan bu məxmər üzərində realist səpkidə maraqlı bir ov səhnəsi təsvir olunmuşdur. Tamaşaçının gözü qarşısında bir-birinin ardınca dairə boyu ayrı-ayrı səhnələr: ceyranı qovan atlı, bəbirlə bir gəncin əlbəyaxa döyüşü, ceyranı parçalayan şir və başqa səhnələr canlanır. Bütün bu surətlər iti hərəkətdə və çox həyati təsvir olunmuşdur. Məxmərin rəngi də təsvirləri qədər zəngin və əlvandır.

Bu əsrlərdə əməyin ixtisaslaşması təkcə düzəldilən əşya növləri sahəsində deyil, şəhərlər arasında da özünü büruzə verməyə başlamışdır. Məsələn, baxmayaraq ki, Ərdəbil şəhəri bədii metal məmulatları düzəltməkdə inkişaf etmiş mərkəzlərdən sayılırdı, Şeyx Səfi türbəsinin gümüş barmaqlıqlarını düzəltmək Gəncə sənətkarlarına, İçərişəhərin dəmir qapılarını Naxçıvan ustalarına sifariş etmişlər.

XVI-XVII əsrlərdə xaricdə Azərbaycan sənətkarları tərəfindən hazırlanmış silah (xəncər, qılınc, toppuz, qalxan) və zirehli geyimlər (başlıq, dirsəklik, dizlik və s.) xüsusilə geniş şöhrət tapmışdır.

Xarici ölkə səyyahları bu əsrlərdə Azərbaycan silahlarının başqa ölkələrlə yanaşı Moskvada daha çox yayıldığını xüsusi qeyd edirlər. Rus mənbələrində biz bu əsrlərdə Şamaxıda düzəldilmiş silahların adlarına tez-tez təsadüf edirik. Belə mənbələrin birində rus çarı Boris Qodunovun səkkiz ədəd Şamaxı sənətkarları tərəfindən düzəldilmiş bəzəkli zirehli başlıqlarından bəhs olunur.

Bu dövrlərdə Azərbaycan silahlarının belə geniş şöhrət tapması əbəs yerə deyildi. Yerli sənətkarlar ənənəvi silahların düzəldilməsində indi bir çox yeniliklər icad etmişdilər.

XV əsrdə geniş yayılmış düz və enli qılınclar əvəzinə indi ayparaya bənzər qızıl, gümüş və qiymətli sümük dəstəkli qılınclar daha çox yayılmağa başlayır.

Hazırda Kremlin Silah palatasında saxlanılan XVI əsrə aid bir qalxan xüsusilə diqqəti cəlb edir. Misli görünməyən gözəllikdə olan bu qalxan, deyildiyinə görə, rus çarı Mixail Fyodoroviç Romanovun müharibə vaxtı özünü qoruduğu silahlardan olmuşdur. Sonralar qalxan məşhur rus sərkərdəsi F.İ. Mstislavskidə olmuş, 1622-ci ilin aprel ayında isə o öldükdən sonra, daimi olaraq rus çarlarının xəzinəsinə keçmişdir. Diametri 50,8 sm. olan bu qalxan bütöv qırmızı poladdan döyülərək üzəri xatəmkarlıq üsulunda bəzədilmişdir. Qalxanın üzərində 42 ədəd qalxan boyu dairəvi cığırlar vardır ki, bunların da içərisinə müxtəlif ov, müharibə səhnələri və heyvanat aləmindən götürülmüş rəsmlər həkk olunmuşdur. Bu dairəvi cığırların 9-da ayrı-ayrı 25 növlü 71 heyvan təsviri, 3-də müxtəlif kompozisiyalarda 18 insan fiquru və s. rəsmlər vardır. Maraqlı burasıdır ki, həkk olunmuş bu rəsmlərin arasında biz məşhur rəssamımız Soltan Məhəmmədin hazırda Leninqradda S. Şedrin adına Dövlət kitabxanasında saxlanılan "Ov səhnəsi" adlı miniatüründən götürülmüş eyni təsvirləri görürük. Bu da, şübhəsiz, Soltan Məhəmmədin XVI əsrdə Təbrizdə məşhur zərgər Məhəmməd Mömin tərəfindən yaradılmış bu əsərdə iştirak etdiyini göstərir. Haqlı olaraq Moskva alimləri bu qalxanı öz gözəlliyinə görə dünya muzeylərində saxlanılan Şərq silahları içərisində misilsiz olduğunu qeyd edirlər [6].

Bununla əlaqədar olaraq, Azərbaycanda düzəldilmiş, bu dövrə aid iki maraqlı əsəri də qeyd etməliyik. Bunların ikisi də müharibə zamanı zadəganlar tərəfindən istifadə edilən baş geyimləridir. Bunlardan birisi hazırda Moskvada Silah palatasında, o birisi isə İstanbulda saxlanılır. İkinci başlığın üzərində onun 1528-ci ildə Şah Təhmasib üçün düzəldildiyi qeyd olunmuşdur.

Birinci zirehli başlıq ilk dəfə Şamaxıdan rus çarı Boris Qodunova gətirilən silahların siyahısı kimi knyaz F.İ. Mstislavskidə olmuşdur. Bəhs etdiyimiz sənət əsəri o qədər bəzəklidir ki, o, başı qılınc, toppuz və s. zərbəsindən qorumaq üçün geyilən müdafiə geyimindən daha çox güləbətin tikməli araqçını xatırladır. Başlığın üzəri gül-çiçək və zərif qıvrım xətli budaqlardan təşkil edilmiş naxışlarla bəzədilmişdir. Naxışlar arasında, ardıcıl olaraq, kiçik yuvacıqlarda yerləşdirilmiş yaqut və firuzə qaşları bu sənət əsərinə bir gözəllik verir.

Başlığın bəzəkləri içərisində xəttatlıq sənəti nümunələri də vardır. Onlar başlığın alın hissəsində, enli qurşaqda yerləşdirilmişdir. Burada "Qadir və mərhəmətli Allah naminə" sözləri yazılmışdır. Başlıq hamarlanmış poladdan düzəldilmiş, onun bəzədilməsində bədii metal emalının üç texniki üsulundan: şəbəkə, xatəmkarlıq və qələm işindən məharətlə istifadə olunmuşdur.

**Problemin aktuallığı.** Müstəqilliyimiz dövründə hərbi-fiziki tərbiyə sisteminin tarixi və aspektlərinin tədqiq olunmaması gənc nəslin sağlamlığı və pedaqoji kadrların hazırlanması sahəsində bir sıra çətinliklər yaradır. Bu isə problemin əhəmiyyətini aktuallaşdırır.

**Problemin yeniliyi.** Hərbi-fiziki tərbiyənin mühüm vasitələri olan fiziki hərəkətlər və oyunların təşkili yolları elmi əsaslarla işlənib hazırlanmışdır;

**Problemin praktik əhəmiyyəti.** Hərbi hissələrdə, hüquq mühafizə orqanlarında bədən tərbiyəsi və idman sahəsində çalışan çoxsaylı zabit və gizirlər üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Aslanov Q.M. Torpaqlarda arxeoloji qazıntılar. Azərb. SSR EA-nın Xəbərləri (ictimai elmlər seriyası). 1961, № 8
2. Azərbaycan Tarix Muzeyi, inv. № 606 (3143, 675) 3149,652/3189, 638/3175, 1790, 1765, 1774
3. Baxşəliev V.B. Oğlanqaladan aşkar edilmiş gil məmulatlarının bəzi morfoloji və texnoloji xüsusiyyətləri haqqında. Respublika arxeoloq və etnoqraflarının I elmi konfransının materialları. Bakı, 1992.
4. Baxşəliev V.B., Novruzlu Ə.İ. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1993.
5. Baxşəliyev V.B., Novruzlu Ə.İ. Şərurun arxeoloji abidələri, Bakı: Elm, 1993.
6. Əhmədov S. Cəfərova E. Azərbaycanın orta əsr silahları. Bakı: Elm, 2005.
7. Əliyev Ə.Ə. Qədim albanlara aid ox ucları. Azərbaycan SSR EA-nın xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası) 1975, 3
8. Əliyev V.H. Culfa arxeoloji tapıntıları. Azərbaycan EA xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1968, № 3
9. Qaziyev S.M. Mingəçevirdən tapılmış bəzi silahlarda Azərbaycan maddi-mədəniyyəti, II cild. Bakı, 1951.
10. Qaziyev S.M. Qazax və Asiya rayonlarındakı arxeoloji və tarixi abidələr haqqında. Bakı, 1965.
11. Rüstəmov C.N., Nərimanov İ.H. Qazax rayonunda dəmir dövrünə aid torpaq qəbir. Azərbaycan tarixi məsələləri. Bakı, 1966.
12. Rüstəmov C.N., Nərimanov İ.H. Qazax rayonunda dəmir dövrünə aid torpaq qəbir. Azərbaycan tarixi məsələləri. Bakı, 1966.
13. Rudik P.A. Uşaqların oyunları və onların pedaqoji əhəmiyyəti. M.-L., 1948.

**E-mail**: mr.quliyev.d@mail.ru

**Rəyçilər:** *prof.* **O.M Cəfərov,** *b\m.* **İ.M. Mazanov**

**Redaksiyaya daxil olub:** 06.11.2018.